**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TƏHSİLİN DEMOKRATİKLƏŞDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏDƏ MƏMMƏD ƏMİN RƏSULZADƏNİN ROLU

İxtisas: 5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Xatirə Zakir qızı Qocayeva**

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqoji elmlər doktoru, professor
Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

**Rəsmi opponentlər:** pedaqoji elmlər doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika üzrə fəlsəfə doktoru, professor
**İramin Namaz oğlu İsayev**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Nigar Eldar qızı Zeynalova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ADPU-nun nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri
____________________
tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının
Elmi katibi
____________________
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri
____________________
pedaqogika elmləri doktoru, professor
**İntiqam Hilal oğlu Cəbrayılov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan xalqının inkişaf tarixində mühüm və əlamətdar bir dövrdür. Bu dövrdə xalqımızın həyatında əvvəlki əsrlərlə müqayisədə diqqətəlayiq hadisələr baş verir. Milli mətbuat, milli teatr, milli ideologiya yaranır. Azərbaycanın məktəb və maarif həyatında ciddi yeniliklər, irəliləyişlər baş verir. "Üsuli-cədid" məktəbləri də daxil olmaqla xeyli sayda yeni, yəni Avropa tipli məktəblər açılır. Müasir mündəricəli təhsil ocaqlarının sayı getdikcə artır, həmin maarif müəssisələrində oxuyan azərbaycanlıların sayı getdikcə artır. Nəticədə müasir təhsil, elm və düşüncəyə yiyələnmiş, xalqını və vətənini sevən, onun maariflənməsi, azadlığı və müstəqilliyi uğrunda fədakarlıqla mübarizə aparan bir nəsil yetişir. Onlar millətin hərtərəfli mənada tərəqqisi yolunda əzmkarlıqla mücadilə aparırlar. Hərtərəfli mənada edilən cəhdlər, aparılan mübarizələr, əldə edilən uğurlar səmərəsiz qalmır. Xalqımızın həyatında müstəsna dərəcədə əhəmiyyətli rol oynayan Azərbaycan Demokratik Cümhuriyyətinin (1918-1920) yaranmasına gətirib çıxarır. Bu dövrdə inkişafın əsas yükü və ağırlığı daha çox milli maarifçilərin üzərinə düşür. Belə böyük, əvəzolunmaz tarixi şəxsiyyətlərimizdən biri də Məmməd Əmin Rəsulzadədir. O, Azərbaycan xalqının yetişdirdiyi ən mübariz, mütəfəkkirvə fədakar şəxsiyyətlərdən biri olmuşdur. XIX əsrin son onilliklərində və XX yüzilliyin birinci yarısında yaşayıb fəaliyyət göstərmiş bu fədakar insan görkəmli siyasətçi, milli ideoloq, ADC-nin qurucularından və rəhbərlərindən biri, mühərrir, naşir, publisist, maarifçi, ictimai xadim, ədəbiyyatşünas, tərcüməçi, tənqidçi və s. kimi tanınır. Məmməd Əmin bəyi xalqımızın məktəb və təhsilinin inkişafı yolunda yorulmadan çalışan bir maarifçi-pedaqoq da adlandıra bilərik. Doğrudur ki, bəzən qısa müddət ərzində auditoriyalara girib dərs deməsinə baxmayaraq o, peşəkar müəllim kimi fəaliyyət göstərməmiş və pedaqoq kimi tanınmamışdır.

Məmməd Əmin bəy başqa əsərləri ilə yanaşı zəngin bir pedaqoji irs qoyub getmişdir. Çox təəssüf ki, bu zəngin irsindiyə qədər pedaqoji tədqiqatlardan kənarda qalmışdır. Halbuki onu öyrənməyə, araşdırıb bugünkü və gələcək nəslə çatdırmağa ciddi ehtiyac vardır. Başqa sözlə, M.Ə.Rəsulzadənin pedaqoji irsini tədqiq və təhlil süzgəcindən keçir-

mək bir neçə mənada əhəmiyyətli və aktual görünür:

*Birincisi,* deyildiyi kimi, Məmməd Əmin bəy çoxşaxəli fəaliyyət və yaradıcılıq yoluna malik universal zəka sahibi olmuşdur. Onun fəaliyyət və yaradıcılıq irsinin bir qolunu da pedaqoji məzmunlu əsərləri təşkil edir. Həmin əsərlərin tədqiqi və öyrənilməsi haqqında söhbət açdığımız şəxsiyyətin fəaliyyətini və yaradıcılıq irsini tam şəkildə anlamağa, onun gördüyü işlərin miqyasını dolğun surətdə anlamağa imkan verərdi.

*İkincisi,* tanınmış ziyalının pedaqoji əsərləri özünün dərin məzmunu, müasirlik ruhu, yeni mündəricəsi ilə seçilir. Bu əsərlər sonrakı dövr pedaqoqlarımız, maarif və məktəb məsələləri ilə məşğul olan mütəxəssislərimiz üçün bir nümunə, ideya-nəzəri mənbə rolunu oynaya və nəticə etibarı ilə pedaqogika elminin, təlim və tərbiyə nəzəriyyəsinin inkişafına töhfəverə bilər.

*Üçüncüsü,* M.Ə.Rəsulzadə geniş erudisiyaya malik bir şəxsiyyət olduğundan pedaqoji məzmunlu əsərlərində, bir qayda olaraq, məktəb, maarif, təhsil, təlim və tərbiyə ilə əlaqəli məsələləri mütləq dövrün ictimai, siyasi və ədəbi-mədəni hadisələri, cari və gələcək prosesləri ilə uzlaşdırır, əlaqələndirir. Ona görə də onun pedaqoji irsi dövrün pedaqoji prosesləri ilə ictimai, siyasi, ədəbi-mədəni və maarifçilik hərəkatını, bunların qarşılıqlı təsirini izləməyə, başa düşməyə imkan verir.

*Dördüncüsü,* bu gün Azərbaycan pedaqogika tarixi elminin qarşısında duran əsas vəzifələrdən biri də pedaqoji fikir, həmçinin məktəb və təhsil tariximizin keçdiyi inkişaf yolunu öyrənməkdir. M.Ə.Rəsulzadənin pedaqoji irsinin elmi araşdırma obyektinə çevrilməsi həm bütövlükdə pedaqoji fikir, məktəb və maarif tariximizin keçdiyi yolu, həm də XIX əsrin sonu və XX əsrin əvvəllərində bu sahədəki mənzərəni aydınlaşdırmaq, daha elmi şəkildə təsəvvür və dərk etmək üçün əhəmiyyətli və vacibdir.

*Beşincisi,* xalqımızın maddi və mənəvi yüksəlişinə töhfə vermiş, xalqa və vətənə xidmət göstərmiş böyük şəxsiyyətlərimizi, onların maddi və mənəvi mirasını tədqiq edib tanıtmaq, indiki və gələcək nəslə çatdırmaq həmin şəxsiyyətlərin ruhu, həmçinin vətənimiz və xalqımız qarşısında bizim borcumuzdur. M.Ə.Rəsulzadə də belə layiqli şəxsiyyətlərdən biridir.

**Tədqiqatın obyekti**ni Azərbaycanda XX əsrin əvvəllərində pedaqoji fikrin və təhsilin inkişafı təşkil edir.

**Tədqiqatın predmeti**ni görkəmli Azərbaycan maarifçisi M.Ə.Rəsulzadənin təhsilin demokratikləşməsi uğrunda mübarizəsi təşkil edir.

**Tədqiqatın məqsədi.** M.Ə.Rəsulzadənin pedaqoji irsini dövrün ictimai-siyasi hadisələri fonunda öyrənməkdən, çarizmin təhsil siyasətinin mahiyyətini üzə çıxarmaqdan, böyüyən nəslin təhsil, təlim və tərbiyəsinin mahiyyəti və məzmunu ilə bağlı onun fikirlərini ümumiləşdirməkdən, pedaqoji ideyalarının Azərbaycanda pedaqogika elminin inkişafına təsirini müəyyənləşdirməkdən ibarətdir

**Tədqiqatın vəzifələri**. Deyilən məqsədə nail olmaqdan ötrü aşağıdakı **vəzifələrin** həyata keçirilməsi nəzərdə tutulur:

– M.Ə.Rəsulzadənin həyat və fəaliyyətinin əsas məqamları barədə məlumat vermək;

– Onun pedaqoji yaradıcılığının əsas nümunələrini bir bütöv halında üzə çıxarmaq və əsas pedaqoji konturlarını müəyyənləşdirmək;

– Vətənpərvər ziyalının maarif və onun əhəmiyyəti barədə baxışlarını şərh etmək;

– Milli ideoloqun çarizmin milli ucqarlardakı, o cümlədən Azərbaycandakı maarif siyasətinin əsas mahiyyətinə, müstəmləkəçilik stixiyasına, bunun praktiki nəticələrinə göstərdiyi münasibətə aydınlıq gətirmək;

– M.Ə.Rəsulzadənin milli məktəb uğrunda mübarizəsinin ümumi və əsas mənzərəsini canlandırmaq;

– Onun milli pedaqoji kadr hazırlığı uğrunda mübarizəsinə və bu barədə qənaətlərinə nəzər yetirmək;

– Müəllim və onun şəxsiyyəti barədə maarifçi ziyalının mülahizələrini analizdən keçirmək;

– Millət xadiminin milli özünüdərk və milli əxlaq tərbiyəsi barədə baxışlarını təhlil süzgəcindən keçirmək;

– Məmməd Əminin ümumi təhsilə keçid barədə fikirlərini, həmçinin bu istiqamətdə apardığı mübarizənin əsas konturlarını aydınlaşdırmaq;

– Maarif münəvvərinin təhsilin məzmunu ilə bağlı şərh və fikir-

lərinə aydınlıq gətirmək;

– Bu görkəmli şəxsiyyətin ana dili və onun tədrisi ilə əlaqəli mülahizələrini, bu yolda apardığı mübarizənin vacib elementlərini təhlil obyektinə çevirmək;

– Dini təlim-tərbiyə və onun əsas istiqamətləri və əhəmiyyəti barədə M.Ə.Rəsulzadənin görüşlərini aydınlaşdırmaq;

– Azərbaycan qadınlarının təlim və tərbiyəyə cəlb edilməsi və bunun sosial-pedaqoji lüzumu haqqında müəllifin baxışlarını analizdən keçirmək;

– Onun yaşlıların təhsili ilə əlaqəli görüşlərinin əsas detal və təfərrüatını üzə çıxarmaq və s.

**Tədqiqatın metodları:** nəzəri, tarixi, tarixi-müqayisəli təhlil, problemlə əlaqəli tarixi, elmi pedaqoji, ictimai-siyasi materialların, arxiv sənədlərinin araşdırılması, sistemləşdirilməsi və ümumiləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** M.Ə.Rəsulzadə zəngin və dəyərli bir yaradıcılıq irsi qoyub getmişdir. Onun təhsil-tərbiyə ilə bağlı ideyalarının araşdırılması, əsas mahiyyətinin üzə şıxarılması, milli ideologiyanın formalaşdırılmasındakı rolunun və müasir təhsil quruculuğundakı rolunun müəyyənləşdirilməsi ilk dəfədir ki, tərəfimizdən həyata keçirilir. Onun Azərbaycan təhsilinin, məktəb və maarif həyatının, təlim-tərbiyə nəzəriyyəsinin müasirləşdirilməsində, demokratikləşdirilməsində, milliləşməsində onun rolunu və tarixi əhəmiyyətini üzə çıxarmağa səy göstərmişik. M.Ə.Rəzulzadə cəmiyyətə həm də görkəmli maarifçi pedaqoq kimi təqdim edilir.

Sovet dönəmində ADC-nin və Müsavat partiyasının rəhbərlərindən olan M.Ə.Rəsulzadənin əsərlərinin nəşri, tədqiqi və ümumiyyətlə, onun haqqında müsbət mənada danışmaq qadağan edilmişdi. Məqsəd bolşevizmin düşməni olan bu milli məfkurə və istiqlaliyyət mücahidinin adını və əməllərini yaddaşlardan silmək, sonrakı nəslə unutdurmaq idi.

Azərbaycan müstəqillik qazandığı vaxtdan, yəni XX əsrin 90-cı illərindən etibarən Məmməd Əminin əsərlərinin nəşri, tədqiqi və təbliği sahəsində müəyyən işlər görülməyə başlanıldı. Cəfakeş alim Şirməmməd Hüseynov istiqlal mücahidinin 1903-1920-ci illərdə Azərbaycan-

da və İranda işıq üzü görmüş mətbu məqalələrini toplayaraq kitab halında tərtib etmiş və 5 cilddə nəşr etdirmişdir.[1] Cəfakeş maarifçi və millət xadimnin həyat və yaradıcılığına, ədəbi-nəzəri görüşlərinə, fəaliyyətinə,ana dili, islam diniilə bağlı fikirlərinin elmi şərhinə, ictimai-siyasi və fəlsəfi görüşlərinin tədqiqinə dair V.Sultanlı, Ş.Qurbanov, M.Fərzəliyeva, N.Yaqublu, A.Əlizadə, M.Ağayev, F.Ələkbərov və b. maraqlı tədqiqat əsərləri də meydana gəlmişdir.

Akademik Hüseyn Əhmədovun, professorlar Əydər Ağayevin, Fərrux Rüstəmovun məqalələri istisna edilməklə onun pedaqoji irsi ilə bağlı sistemli araşdırmalar aparılmamışdır.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- XX əsrin əvvəllərindəAzıərbaycanda təhsil və pedaqoji fikrin yeni məzmunda, yeni istiqamətdə inkişafında M.Ə.Rəsulzadənin müstəsna xidmətləri olmuşdur.
- M.Ə.Rəsulzadə böyüyən nəslin əxlaqi-mənəvi tərbiyəsi,ümumi, icbari və pulsuz təhsili ilə bağlı bitkin konsersiya müəllifidir.
- Milli özünüdərk və milli əxlaq, təhsilin məzmunu, dini təlim-tərbiyəvə qadınlarının təlim və tərbiyəyə cəlb edilməsi ilə bağlı ideyaları o dövrün pedaqoji fikrinin formalaşmasında mühüm rol oynamışdır.
- M.Ə.Rəsulzadənin milli mənəvi dirilik konsepsiyası böyüyən nəslin əqlinin, ruhunun və cisminin bərabər səviyyədə inkişafına təkan vermişdir.
- Azərbaycanda ilk ali təhsilli kadr hazırlığı onun təşəbbüsü və əziyyəti hesabına təşkil edilən Bakı Dövlət Darülfünunda həyata keçirilmişdir.
- Onun uşaqların, qadınların və yaşlıların təhsil-tərbiyəsi ilə bağlı fikirləri müasir dövrüçün də aktualdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Siyasət və dövlət adamı olan M.Ə.Rəsulzadənin pedaqoji irsinin sistemli öyrənilməsi, pedaqoji fəaliyyətinin və maarifçilik görüşlərinin tədqiqi pedaqoji fikir tariximizi zənginləşdirməklə yanaşı, bu istiqamətli araşdırmaların aparılmasına

[1]Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I c.,Bakı: Azərnəşr, 1992, 470 s. Əsərləri (1909-1914). II c.,Bakı: Şirvannəşr, 2001, 526 s.Əsərləri (1915-1916). III c.,Bakı: Elm, 2012, 596 s

stimul verir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun tədrisində, Azərbaycan pedaqoji abtalogiyasının" tərtibində istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası.** Dissertassiyanın əsas məzmunu ilə bağlı Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 9 məqalə nəşr olunmuş, beynəlxalq və respublika səviyyəli konfranslarda məruzələr edilmişdir.

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

Dissertasiya işi giriş, iki fəsil, on bir paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 8 səhifə, 14816 işarə, I Fəsil – 78 səhifə, 154995 işarə (1.1. – 25 səhifə, 50219 işarə; 1.2. – 10 səhifə, 20436 işarə; 1.3. – 13 səhifə, 25636 işarə; 1.4. – 16 səhifə, 31632 işarə; 1.5. – 14 səhifə, 27001 işarə;), II Fəsil – 64 səhifə, 128219 (2.1. – 10 səhifə, 21059 işarə; 2.2. – 11 səhifə, 21676 işarə; 2.3. – 10 səhifə, 21261 işarə; 2.4. – 11 səhifə, 21672 işarə; 2.5. – 11 səhifə, 21708 işarə; 2.6. – 11 səhifə, 20843 işarə;) nəticə – 5 səhifə, 8837 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı 18 səhifə olmaqla dissertasiya 175 səhifə, 280 929 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın ilk fəsli ***"M.Ə.Rəsulzadənin həyatı və pedaqoji yaradıcılığının əsas istiqamətləri"*** adlanır. Fəslin *"M.Ə.Rəsulzadənin həyatı və pedaqoji irsi"*adlı ilk paraqrafında M.Ə.Rəsulzadənin həyatının və yaradıcılığının mühüm məqamları araşdırılır. Əsaslandırılır ki, o,1884-cü ildə yanvar ayının 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Atası Ələkbər dini təhsil görmüş, Quranı, şəriət qaydalarını, islam dininin əsaslarını mükəmməl bilən, ərəb-fars dillərinə bələd bir ziyalı idi. Molla Ələkbər oğlunun ilk təhsil və tərbiyəsi ilə özü məşğul olmuşdur. O, oğluna ərəb əlifbası ilə yazıb oxumağı, ibtidai şəriət qaydalarını, həmçinin müəyyən qədər ərəb-fars dillərini mənimsədə bilmişdi. Övladını mollaxanaya deyil, "rus-müsəlman" məktəbinə qoyması da onun müasir baxışlı, mütərəqqi ruhlu bir insan olduğunu aydın

göstərir. Məmməd Əmin üç il S.M.Qənizadənin müdir olduğu ikinci "rus-müsəlman" məktəbində təhsil alır. Burada o, rus dilini öyrənir, fars dili ilə bağlı biliyini daha da dərinləşdirir. Sonra atası onu təhsilini davam etdirmək məqsədilə Bakı Texniki Məktəbinə qoyur. Lakin o, peşəyönümlü təhsil verən bu maarif ocağında axıra qədər oxumur və müəyyən müddət sonra oradan ayrılır[1]. "Kaspi" qəzetində mürəttib vəzifəsinə düzəlir. 1902-ci ildə Rəsulzadə qeyri-rəsmi şəkildə "Müsəlman Gənclik Təşkilatını" yaradır. Əslində bu, "Müsəlman Demokratik Müsavat Cəmiyyəti"ninilk özəyi idi ki, sonralar "Hümmət" təşkilatına çevrildi. Bu dövrdə o, siysi fəaliyyət yanaşı, ciddi yaradıcılıqla və xeyriyyəçilik fəaliyyəti ilə məşğul olur.

Paraqrafda M.Ə.Rəsulzadənin ailə həyatına geniş toxunulur. Onun ailə həyatının ilkilləri nikbin, normal bir axara malik olsa da, sonrakı taleyi son dərəcə faciəli və kədərli olmuşdur. Bunun səbəbkarı isə rus-bolşevik işğalı, kommunist rejiminin siyasi hakimiyyəti olmuşdur. Onun həyat və fəaliyyətinin sonrakı iki ili Türkiyə ilə bağlı olur. Bu zaman Türkiyədə, xüsusilə də İstanbulda qaynar, coşqun bir ictimai-siyasi, ədəbi-mədəni mühit var idi. M.Ə.Rəsulzadənin fikir və əqidəsinin formalaşmasına qüvvətli şəkildə təsir göstərən, onun sonrakı fəaliyyət istiqamətinin müəyyənləşməsinə nəzəri cəhətdən impuls verən türkçü mütəfəkkirlər Əli bəy Hüseynzadə, Ziya Göyalp, Yusif Akçura, Əhməd bəy Ağayev və s. kimi böyük ziyalılar da İstanbulda yaşayırdılar. Məmməd Əmin onlarla sıx əlaqə saxlayırdı.

1913-cü ildə onun vətənə qayıtmaq şansı yaranmışdır. Fürsətdən istifadə edən görkəmli siyasətçi öz vətənində yaşamaq və onun istiqlalı yolunda daha yaxından çalışmaq məqsədilə Bakıya qayıdır. Burada Müsavat partiyasının rəhbəri kimi intensiv siyasi fəaliyyət göstərir, eyni zamanda publisistik, bədii və tərcümə yaradıcılığı ilə məşğul olur. Paraqrafda "Müsəlman Demokratik Müsavat Partiyası"nın təşkilindən, ictimai-siyasi həyatdakı rolundan ətraflı danışılır, "Türk ədəmi-mərkəziyyət" partiyası ilə birləşməsinin səbəbləri araşdırılır. Məmməd Əminin Azərbaycan Demokratik Respublikasının təşkilində və fəaliyyətindəki rolu şərh olunur.

[1]M.E.Resulzadenin hal tercümesi // "Azerbaycan" dergisi, Ankara, Ocaq-Şubat, 1954, s.2-10

*"M.Ə.Rəsulzadə maarif və onun əhəmiyyəti haqqında"* yarımfəslində əsaslandırılır ki, XIX əsrdə və XX əsrin əvvəllərindəAzərbaycan maarifçiləri millətin oyanışını, dirçəlişini, geniş mənada inkişafını, istibdaddan, əsarətdən xilasını və xoşbəxtliyini ilk növbədə elm və maarifdə görürdülər. Onlar cəhalət, nadanlıq, müstəmləkə girdabında boğulan xalqın nicat yolunu elm və maarifdə görürdülər. "Nicat nədədir?" sualına birmənalı şəkildə "Nicat elm və maarif nurundadır!"– cavabını verir, bu nurun şölələnməsi yolunda var qüvvə ilə çalışırdılar.

Bu dövrdə haqqında danışdığımız tale yüklü məsələyə "şüru və əmək sərf edənlər"dən biri də M.Ə.Rəsulzadə idi. O, bu yolda əməli şəkildə çalışmaqla nəzəri mülahizə və göstərişlərini də mətbuat vasitəsi ilə oxuculara çatdırırdı.

M.Ə.Rəsulzadənin qənaəti beləidi: "Cəmaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? - Maarif, maarif, maarif! Ancaq elm və bilik ilə cəmaət özünün nə olduğunu və nə edə biləcəyini qana bilər."[1] Onun "Dirilik nədir?"[2], "Milli dirilik"[3] kimi siyasi-pedaqoji traktatlarında elm, maarif və tərbiyənin mahiyyəti daha masştablı, dərin fəlsəfi-pedaqoji əsaslara söykənərək şərh olunur.Millətlər mədəniyyət, elm, maarif və tərbiyə cəhətdən güclü olmasalar, bəşəriyyət rəzil, miskin və çarəsiz kütləyə çevrilər. Əslində bəşər mədəniyyətinin özü milli mədəniyyətlərin məcmusu olduğu kimi bəşərin diriliyi də millətlərin diriliyindən asılıdır. M.Ə.Rəsulzadəyə görə bu, ancaq elm, maarif, tərbiyə və mədəniyyətlə mümkündür. Deməli, bunlarsız milli dirilik və nicat da mümkün deyil.

*"M.Ə.Rəsulzadə çarizmin maarif siyasəti haqqında"*paraqrafında çarizmin Azərbaycanda həyata keçirdiyi ruslaşdırma və xristianlaşdırma siyasəti böyük mütəfəkkirin pedaqoji irsi əsasında təhlil olunur.

*"M.Ə.Rəsulzadənin milli məktəb uğrunda mübarizəsi"* adlı paraqrafda əsaslandırılır ki, XX əsrin əvvəllərində milli məktəblərin yaradılması uğrunda aparılan mübarizənin fədakarlarından biri də M.Ə.Rəsulzadə idi. O, gənc yaşlarından bu həqiqəti dərk etmiş və onun uğ-

---

[1]Rəsulzadə M.Ə.-nin H.Zərdabinin dəfn mərasimində nitqi. "İrşad" qəzeti, Bakı, 1907, 2 dekabr

[2]Rəsulzadə M.Ə. Dirilik nədir? // "Dirilik" jurnalı, 1914, №1

[3]Rəsulzadə M.Ə. Milli dirilik // "Dirilik" jurnalı, 1914, №2-8

runda mücadiləyə başlamışdır ki: *"İbtidai məktəb gərək ki, milli olsun. İbtidai məktəb gərək ki, yerli cəmaətə doğma olsun. Burada təlim ana dilində olsun. Bu məktəblər gərək cəmaətin məişətinə uyğun olsun..."*[1] İlk mərhələdə ibtidai məktəblərin milliləşdirilməsi fikrini irəli sürən M.Ə.Rəsulzadə ictimai-siyasi, mədəni-pedaqoji şəraitin məntiqindən çıxış edirdi. Müəllifin fikrincə, hətta müsəlmanlardan ötrü açılmış yerli məktəblər olan "rus-müsəlman" məktəblərini də milli məktəb kimi dəyərləndirmək mümkün deyil. Çünki bu məktəblərdə həftə ərzində tədris olunan 25-30 saat dərsin cəmi 3 saatı türk dili, 2 saatı isə şəriət dərslərinə ayrılır.

M.Ə.Rəsulzadə "milli məktəb idealı"nın, "milli məktəb siyasəti"nin xeyriyyə cəmiyyətlərinin də maariflənmə və məktəb uğrunda mübarizəsinin əsas xətlərindən olmalı olduğunu nəzərə çatdırır. Omum bu ideyası ADR dövründə reallaşdı, təhsilin milliləşdirilməsi yolunda mühüm addımlaratıldı. Paraqrafda əsaslandırılır ki, bu milliləşmə prosesi M.Ə.Rəsulzadə və məsləkdaşlarının milli ideallar naminə illər boyu apardıqları yorulmaz mübarizənin nəticəsi idi.

*"M.Ə.Rəsulzadə pedaqoji kadr hazırlığı və müəllimin şəxsiyyəti barədə"* paraqrafda Məmməd Əminin müəllim, onun şəxsiyyəti, cəmiyyətdə müəllimin rolu və mövqeyi, müəllim və müasir həyat, imperiya daxilində müəllimə, xüsusilə də müsəlman dininə mənsub müəllimlərə ögey münasibət, pedaqoji kadr hazırlığı və çarizmin siyasi-pedaqoji rejimində ona münasibət, mütləqiyyətin Rusiya müsəlmanları arasında müəllim hazırlığına, müsəlman məktəbləri üçün pedaqoji kadrlar hazırlayan təhsil təsisatlarına soyuq və məkrli münasibəti, müəllim və müasirlik, müəllim və milli gerçəklik və s. kimi məsələlərə toxunulur.

M.Ə.Rəsulzadə milli məktəblərimiz üçün pedaqoji kadrlar hazırlayacaq seminariya və ali məktəblərin təsisi, həmin tədris ocaqlarında proqram və təlimin məzmunu, yetişəcək kadrların səciyyəsi ilə bağlı maraqlı, gərəkli, uzaqgörən təkliflər, məsləhətlər verməklə yanaşı ali məqamlı dövlət məmurlarının, monarxiya ideoloqlarının bu sahədə yürütdükləri mənfur, şovinist siyasətin mahiyyətini də açıb xalqa başa

---

[1]Rəsulzadə M.Ə. İbtidai yerli məktəblər. "Tərəqqi" qəzeti, Bakı, 1908, 20 noyabr

salır. Onun müxtəlif məqalə və çıxışlarında bu məsələyə toxunulur. Bilavasitə onun təşəbbüsü ilə 15 noyabr1919-cu ildə Bakı Dövlət Universiteti təsis edildi, pedaqoji institutun yaradılması nəzərdə tutuldu.

Dissertasiyanın ikinci fəsli ***"M.Ə.Rəsulzadənin pedaqoji irsində təlim-tərbiyə məsələləri"*** adlanır. Fəslin *"Milli özünüdərk və milli əxlaq tərbiyəsi"* adlı paraqrafda əsaslandırılır ki, M.Ə.Rəsulzadəni düşündürən əsas məsələlərdən biri də xalqın milli özünüdərki və milli əxlaq tərbiyəsi idi. Xalqa öz kimliyini, mənəvi dəyərlərini, əxlaqi heysiyyətini, ədəbi-mədəni keçmişini anlatmaq, onun milli duyğularını oyatmaq, özünə inam və milli qürur hissi yaratmaq zamanın həlli vacib olan aktual ictimai-pedaqoji, ədəbi-mədəni problemi kimi onu narahat edir, çarə və çıxış yolu axtarmağa sövq edirdi. 1914-cü ildə "Dirilik" jurnalında işıq üzü görən bu məqalələr silsiləsi əslində milli tərbiyə ilə bağlı məzmunlu ictimai-pedaqoji risalədir. Burada millət, onun əlamətləri, millətin formalaşmasında və təkamülündə lazım gələn vacib faktorlar, milli özünüdərk, xalqın milli zəmində tərbiyəsi üçün gərək olan şərtlər və vasitələr, milli-mənəvi tərbiyənin, milli əxlaqın xalqın tarixi taleyində rolu, müasir gənclik və milli tərbiyə, milli ideal və xalqın hürriyyəti və istiqlalı və s. məsələlər sadə, məzmunlu və dolğun şəkildə şərh edilmişdir.

"Milli dirilik" məqaləsində diqqətəlayiq məsələlərdən biri milli tərbiyə ilə dini tərbiyənin, milli mənsubiyyətlə dini mənsubiyyətin bir-birindən fərqləndirilməsi, bunların başqa-başqa şeylər olduğunun geniş kütləyə izah olunmasıdır.

M.Ə.Rəsulzadə böyüməkdə olan nəslin milli ruhda, müasir düşüncədə, öz xalqının şərəfli milli keçmişi ilə indiki zamanın əhvali-ruhiyyəsini özündə birləşdirəcək bir əqidə və bilik sahibi kimi tərbiyəsində din xadimlərinin də üzərinə müəyyən vəzifələr düşdüyünü söyləyirdi. Bu mənada o, mühafizəkar, köhnəpərəst, mənfəətgir ruhaniləri tənqid edirdisə, mütərəqqi görüşlü, millətsevər, müasir dünya ilə ayaqlaşmağın zərurətini dərk edən din xadimlərini alqışlayırdı.

M.Ə.Rəsulzadə tərbiyədə "milliləşmə"ni zamanın tələbi hesab edir. Həm də tərbiyənin milli əsaslar üzərində qurulması üçün nələri həyata keçirmək lazım gəldiyini sadalamaq, izah etməklə kifayətlənmir, eyni zamanda bu vacib missiyanı kimlərin, görməli olduğu və

görəcəyi, hansı yola həyata keçirilməli olduğu barədə də tövsiyələr verir.

*“Ümumi təhsil haqqında”* paraqrafda XIX-XX əsrlərin qovuşuğunda Azərbaycan ictimai-mədəni və pedaqoji gerçəkliyində özünü büruzə verən əsas boşluq dünyəvi məktəblərin kifayət qədər az olması, böyümәkdə olan nəslin əksəriyyətinin təhsildən kənarda qalması və əhalinin əsas qisminin kütləvi şəkildə savadsız olması idi. Hökumətin yürütdüyü məqsədyönlü siyasət nəticəsində məktəbyaşlı azərbaycanlı uşaqların əksəriyyəti təhsil prosesindən kənarda qalır, cüzi bir qismi məktəbə cəlb edilirdi.

Xalqın kütləvi şəkildə təhsil almasının, savadlanmasının qızğın təbliğatçılarından, bu istiqamətdə nəzəri və əməli iş aparmağa səy göstərən maarifçi münəvvərlərimizdən biri də M.Ə.Rəsulzadə idi. O, aydın dərk edirdi ki, mədəni yaşayış, əsrin və zamanın tələbləri ilə ayaqlaşmaq üçün, həm fərdi qaydada müasir görüşlü, öz haqq və hüququnu bilən cəmiyyət üzvü olmaqdan, cəmiyyətə xeyir verməkdən, həm də bir millət olaraq yüksəlişə nail olmaqdan ötrü cəmiyyəti, milləti təşkil edən fərdlər oxumalı, savadlı olmalıdırlar. Maarif və elm sahiblərinin çoxluğu istər din, istər milliyyət, istərsə də məişət və hüquq nöqteyi-nəzərindən cəmiyyətin rifahına, inkişafına təkan verir. Toplumun sağlamlığına, səadətinə, hürriyyətinə yol açır. Cəhalət və savadsızlıq isə cəmiyyəti və onu təşkil edən fərdləri fəlakətə, faciəyə və bədbəxtliyə düçar edir. Bunun sübutu üçün Məmməd Əmin “Diyanət, milliyyət və məişət nöqteyi-nəzərindən kənd məktəbləri” məqaləsində həm maraqlı həyati faktlara müraciət edir, həm də kəndlərdə yeni-yeni məktəblər açmağa, təhsil ocaqlarını kütləviləşdirməyə çağırır.

M.Ə.Rəsulzadə “təlimi-ümumi” yolunda bir sıra ciddi maneələrin olduğunu da nəzərə çatdırır. Bu maneələrin həm hökumət, həm də camaat tərəfindən həyata keçirilən tərəfləri vardır. Hökumət tərəfindən olunan maneə hamıya aydındır. Məqsəd müsəlmanların maariflənməsinin, inkişafının qarşısını almaq, onları qaragüruha, öz hüququndan bixəbər kütləyə çevirməkdir.

M.Ə.Rəsulzadənin “Təlimi-ümumi məsələsi” məqaləsində diqqəti cəlb edən, tarixi-pedaqoji həqiqətləri öyrənmək baxımından bu gün və gələcək üçün də maraq kəsb edən məsələlərdən biri də 1914-cü

ildən sonra Bakı və onun ətrafındakı kəndlərdə əhalinin sayı, bu saya mütənasib olaraq hansı kənddə neçə məktəb açılacağı, hər açılan təhsil ocağına neçə müəllim təyin ediləcəyi, nə qədər xərc çəkiləcəyi barədə nəzərdə tutulan statistikanın verilməsidir.[1]

"Təlimi-ümumi" ideyası ADR-in yaranması ərəfəsində və ADR dövründə də M.Ə.Rəsulzadənin və onun həmməsləklərinin diqqət mərkəzində olmuşdur.

ADR dövründə həyata keçirilən təhsil islahatları sırasında ən aktual vəzifələrdən biri də ölkədə ümumi ibtidai təlimə keçid ideyasını əməli şəkildə həyata keçirmək məsələsi idi. 1918-ci ilin iyun ayından etibarən yeni yaranmış ADR-in Maarif Nazirliyi bu istiqamətdə ciddi işlər görməyə başladı və müəyyən uğurlar əldə edildi. Təəssüf ki, uzun illər tələb edən bu təşəbbüsü tam şəkildə reallaşdırmağa vaxt çatmadı. Bunun səbəbi yarandığı gündən 23 ay sonra milli Azərbaycan dövlətinin rus-bolşevik qüvvələri tərəfindən işğalı idi.

*"Təhsilin məzmunu haqqında"*adlı paraqrafda əsaslandırılır ki, təhsil və tədris həyatının müxtəlifproblemləri M.Ə.Rəsulzadənin diqqət mərkəzində olmuş, o, həmin problemlərə səriştəli bir pedaqoq fəhmi ilə yanaşmış, bu aspektdə mövcud olan nöqsanları tənqid etmiş, çatışmazlıqları aradan qaldırmaqdan ötrü çıxış yolu göstərmiş, müsbət cəhətləri təqdir etmişdir. Belə ki, o, təlimin komponentləri, tədris proqramları, dərsliklər, şagirdlərdən ötrü oxu kitabları, uşaq mətbuatı, bu mətbuatda şagirdlərə təqdim edilən mütaliə materialları və s. barədə dəyərli mülahizələr söyləmiş, təhlillər aparmışdır. Bununla da Azərbaycan məktəblərində təhsilin məzmununun müasirləşməsi, milliləşməsi, yeni dövrün tələblərinə uyğunlaşdırılması, demokratikləşdirilməsi yolunda səmərəli işlər görmüşdür.

Onun müxtəlif fənlərə aid proqramların fənnin əsas məzmun və mahiyyətini ehtiva etməsi, şagirdlərin yaş səviyyəsinə uyğunlaşdırılması, müasir ölçü və tələblərə müvafiqliyi, sistemliliyi, ardıcıllıq prinsipini gözləməsi və s.-lə əlaqəli mülahizələr söylədiyinin şahidi oluruq. Onun rəyincə məktəb açmaq şərt deyil. Əsas şərt açılacaq maarif ocağında hansı fənlərin tədrisi, bu tədrisin hansı dildə, hansı proqramla,

[1]Rəsulzadə M.Ə. Təlimi-ümumi məsələsi. "İqbal" qəzeti, Bakı, 1914, 24 dekabr

hansı dərslik və təlim vasitələri ilə aparılması, dərsdənkənar vaxtlarda uşaqların mütaliəsinə hansı kitabların təqdim olunması, təlimin hansı üsulla öyrədilməsi və s.-dir. Əgər bu şərtlər lazımi şəkildə ödənilmirsə, müasir məktəbdən, təhsilin müasirliyindən və faydalılığından, demokratik prinsiplərə uyğunluğundan, milli dirçəlişə səmərə verəcəyindən danışmağa dəyməz.

M.Ə.Rəsulzadənin diqqət yetirdiyi pedaqoji məsələlərdən biri o zamankı dərsliklər və onların məzmunu ilə bağlı idiki dissertasiyada bu məsələyə xüsusi diqqət yetirilmişdir..

F.Köçərlinin tərtib etdiyi "Balalara hədiyyə" kitabını da M.Ə.Rəsulzadə xüsusi bir rəğbətlə təqdir edir. Tədris və təlim işlərində əvəzsiz mənfəətə səbəb olacaq bu cür kitabın indiyə qədər yalnız Azərbaycanda deyil, bütün "türk aləmində", "aləmi-islamda" mövcud olmadığını nəzərə çatdırır.

*"Ana dili və onun tədrisi haqqında"* adlı paraqrafda M.Ə.Rəsulzadənin xalqın milli varlığını müəyyənləşdirən ən mühüm atributlardan biri və birincisi olan ana dili haqqında fikirləri ümumiləşdirilir. Əsaslandırılır ki,milli ideoloq kimi M.Ə.Rəsulzadənin ictimai və maarifçilik fəaliyyətinin əsas istiqamətlərindən birini məktəblərdə ana dili və onun tədrisi problem təşkil edir. Təhsil sahəsində ana dilinin və ana dili müəllimlərinin imtiyaz və mövqeyinin genişlənməsi, milli dildə məktəblər açılması onu daim düşündürmüş, ana dilinin ictimai, siyasi, pedaqoji, mədəni və s. məsələlərlə bağlılığını açıb göstərmiş, xalqın milli taleyinin müəyyənləşməsində onun əhəmiyyətini şərh etmişdir. Maarifçi ziyalının "Yerli məktəblər", "Milliyyət məsələsi", "Bizim rəsmi dilimiz yoxdur", "Asan dil – yeni lisan", "Dil ictimai mühüm bir amil", "Rus-müsəlman məktəblərində türkcə tədrisi", "Əlifba bayramı", "Əlifba məsələsi. Mühüm bir xəbər münasibətilə", "Milli dirilik", "Firidun bəy Köçərli məktubuna aid", "Orta məktəblərdə məhəlli dillər", "İslam dini və ana dili" və s. pedaqoji məzmunlu məqalələrində deyilən fikrin bu və ya başqa şəkildə ifadəsini görürük. Məmməd Əmin bəyin milli dilə sevgisi, onun təlim sferasında mövqeyinin artırılmasına və kütləviləşməsinə xüsusi əhəmiyyət verməsi ana dilinin xalqın milli varlığını hifz edən, yaşadan ən mühüm ictimai amillərdən biri olması ilə bağlı idi. O, bir sıra əsərlərində, çıxışlarında, o cümlədən "Dil icti-

mai mühüm bir amil", "Milli dirilik" və s. məqalələrində bu həqiqəti dönə-dönə xatırladır. Onun fikrincə: "...Dil milləti hər şeydən daha gözəl təmsil edir. Millət dil vasitəsilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilir... Dil qanlı və canlı, adətən üzvi və zihəyat bir vücuddur. Dil millətin canıdır. Dil millətin məntiqi, ruhu və onun şəxsiyyəti-müştərəkəsidir.

İştə bunun üçündür ki, bir dili öldürmək bir milləti öldürmək deməkdir. Və yenə buna görədir ki, hər bir təmsil dili təzyiq etməklə başlar. Dil durduqca millət də durar, öldümü, millət də canını bağışlar."[1]

Ümumilikdə "rus-müsəlman" məktəblərinin fəaliyyəti Məmməd Əmini qane edir. Bu cür təhsil ocaqlarını görüb xalqınməktəb və maarifə rəğbətinin artdığını da nəzərə çatdırır və təqdir edir. Lakin göstərir ki, burada türkcənin, yəni milli dilin tədrisi qaneedici deyil. Xalqın və dövrün istəyi, tələbləri ilə uzlaşmır. Bunun başlıca səbəbi isə orada çalışan müəllim kadrları və dərsə yetirilən diqqətin kafi səviyyədə olmamasıdır. Belə ki, "rus-müsəlman" məktəblərində müəllim işləyənlər əksərən Qori Müəllimlər Seminariyasının məzunlarıdır. Seminariyada isə milli dillərin tədrisinə o qədər də diqqət yetirilmir. Yerli dillərə ikinci dərəcəli fənn kimi baxılır. Elə buna görə də seminariyanı bitirənlər ana dilini mükəmməl şəkildə mənimsəyə bilmirlər. İkinci tərəfdən "rus-müsəlman" məktəblərində məxsusi olaraq ana dili müəllimləri yoxdur. Həmin fənni başqa fənləri tədris edən müəllimlər keçir. Bu isə təlimin vəziyyətinə mənfi təsir göstərir. Müəllif qeyd edir ki, "seminaristlərdən bir çoxunun türkcədən tamamilə piyadə olduqları" səbəbindən yaranan nöqsanın nəticəsində camaat yığışıb Bakıda şəhər idarəsinin maarif komissiyasına müraciət və xahiş etmişlər ki, ana dili fənni də başqa fənn müəllimləri tərəfindən yox, şəriət dərsləri kimi məxsusi olaraq ayrıca müəllim tərəfindən tədris edilsin. Yəni "rus-müsəlman" məktəbinə ana dilini yaxşı bilən ixtisas müəllimləri təyin edilsin. Bakı quberniyasının ibtidai məktəblər üzrə inspektoru S.M.Qənizadə də "təhqiqat və təftişat" zamanı deyilən nöqsanları nəzərə alaraq camaatın fikrinə tərəfdar çıxmışdır. Təəssüf ki, şəhər idarəsi bu işdə heç bir təşəbbüs göstərmir. Nöqsan isə davam etməkdədir.

---

[1]Rəsulzadə M.Ə. Dil ictimai mühüm bir amil // "Şəlalə" jurnalı, 1913, №27, s.18-21

M.Ə.Rəsulzadə milli düşüncəli, milli əqidəli vətəndaşlar tərbiyə etməkdə ana dilinin müstəsna rol oynadığını, elə buna görə də doğma dilin istər təlimi ilə məşğul olanların, istərsə də təhsil alan hər bir vətən övladının onu bilməli olduğunu dönə-dönə xatırladır.

*"Dini təlim və tərbiyə haqqında"* adlı paraqrafda M.Ə.Rəsulzadənin dini təlıim və tərbiyə haqqında fikirləri ümumiləşdirilir, tədqiq və təhlil edilir. Əsaslandırılır ki,Azərbaycanda milli intibahın geniş mənada vüsət götürdüyü XIX-XX əsrlərin hüdudlarında xalqın oyanışı və inkişafı ilə bağlı müzakirə, mübahisə və məfkurə qovğalarında ən mühüm məsələlərdən biri də islam dininə münasibət, onun cəmiyyətin tərəqqisində rolu, yeri və ümumiyyətlə, dini tərbiyə məsələsi idi. M.Ə.Rəsulzadə dini tərbiyəni müasirliklə qovuşdurmağın tərəfdarı kimi çıxış edirdi. Əsərlərindədini tərbiyənin bu və ya digər faktorundan bəhs edir, onun əsas nüanslarını, səmərəsini və mahiyyətini oxuculara başa salırdı. Məşhur "Milli dirilik" traktatında Məmməd Əmin israr edir ki, diriliklərin ən qiymətlisi milli dirilik, milli diriliyin əsas rüknlərindən biri də dindir. Hətta "din nə qədər dildən sonra gələn bir amil isə də bəzi şərait daxilində ondan daha müəssir bir qüvvət şəklini də ala", "böyük bir təsir icra edə bilir."

M.Ə.Rəsulzadə dini tərbiyənin düzgün, dürüst aparılmasını ictimai və maarif meydanında son dərəcə əhəmiyyətli amil sayır. Bunun yolları və vasitələri barədə də öz təkliflərini verirdi. "Bəsirət gərək!" məqaləsində müəllif deyilən məsələnin dolğun elmi-pedaqoji şərhini verir. Göstərir ki, əsrlər boyunca müsəlmanların ruhuna hopmuş, qanına, iliyinə işləmiş bu fəlsəfə onlarda inamsızlıq, fəaliyyətsizlik, süstlük, ətalət və hərəkətsizlik yaradır. Özünə inam hissini itirən, hər an "müsəlmandan adam olmaz" təlqini ilə üzləşən islam övladı zülmə, zalıma, hürriyyətə, mədəniyyətə, tərəqqiyə də biganə yanaşır. Mübarizlik, əzmkarlıq hissini itirir. "Bəsirəti fayidəsizləndirən, hər bir fəaliyyət və hərəkəti öldürən" bu "ölü nəzəriyyə, fəna düşüncə" çox təəssüf ki, "avamımıza, xassımıza, böyügümüzə, kiçiyimizə, hamımıza təsir etmişdir.

M.Ə.Rəsulzadənin pedaqoji yaradıcılığında mühüm və gərəkli bir problemə – İslam dini və ana dili, başqa sözlə, islam dininin milli dil müstəvisində mövqeyi, ona təsiri, milli dillə əlaqəsinin ölçüləri və

bunun dini tərbiyə və təlimdə rolu probleminə də toxunulur.

*“Qadınların və yaşlıların təhsili və tərbiyəsi barədə”* adlı paraqrafda əsaslandırılır ki, M.Ə.Rəsulzadənin yaşayıb fəaliyyət göstərdiyi XIX-XX əsrlərin qovşağında milli ictimai, mədəni, maarif və pedaqoji gerçəkliyimizin mühüm problemlərindən biri də qadın tərbiyəsi – “tərbiyəti nisvan” problemi idi. Milli-mədəni, sosial və iqtisadi inkişafımızın bu intibah dövründə həyata az-çox yeni düşüncə ilə yanaşan, vətənpərvər hiss və məfkurə ilə yaşayan millət münəvvərlərinin çoxu zamanın bu vacib məsləsinə diqqət yetirir, onu müzakirə obyektinə çevirir, ictimai, pedaqoji və ədəbi fikri ona doğru yönəltməyə təşəbbüs göstərirdilər. Onlar cəmiyyətin böyük bir qismini təçkil edən qadınlara aparıcı, həlledici qüvvə, böyüməkdə olan nəslin mürəbbiəsi, tərbiyəvericisi kimi baxır, onların özünə normal təlim və tərbiyə verib lazımi səviyyəyə çatdırmadan xalqın da cəhələtdən, nadanlıq və gerilikdən, mənəvi əsarət və səfalətdən qurtara bilməyəcəyini söyləyirdilər.

M.Ə.Rəsulzadə “rus-müsəlman” qız məktəblərini, istər burada, istərsə də başqa təhsil ocaqlarında oxuyan qızlarımızı millətin “ümid işıltıları” adlandırır. Onun “Ümid işıltıları” adlı məqaləsində məsələnin sosial-pedaqoji mahiyyəti qlobal mənada təhlil edilir. Problemə ümummilli mənafe nöqteyi-nəzərindən yanaşılır.

M.Ə.Rəsulzadə yalnız qadınlarımızın maariflənməsinin, təhsil almasının qayğısına qalmır. O, problemə daha geniş miqyasda yanaşır. Onu maraqlandıran, narahat edən, çıxış yolu tapmağa sövq edən, ümumiyyətlə, Azərbaycan qadınının cəmiyyətdəki hüquqsuzluğu və mövqeyinin aşağı olmasıdır.

1913-cü ildə yazdığı “Tənqid və təqriz” məqaləsində (195, 268-271) müəllif cəmiyyətdə müsəlman qadınlarının hüququ, ictimai həyatda onların rolu məsələsinə geniş şəkildə toxunur.

1917-ci ilin mayında Moskvada keçirilən və M.Ə.Rəsulzadənin də fəal surətdə iştirak etdiyi Ümumrusiya Müsəlmanları Qurultayında geniş şəkildə müzakirə olunan məsələlərdən biri də müsəlman qadınlarının vəziyyəti, onların hüquqları, təlim və tərbiyəsi məsələsi idi. Geniş müzakirə və mübahisələrdən sonra bu barədə ayrıca qərar qəbul edilmiş, əksər nümayəndələr müasir dövrün tələbləri baxımından hazırlanmış qərara səs vermişdilər. Qadınların kişilərlə bərabər hüquqa malik

olması, ictimai, mədəni, hətta siyasi işlərdə fəal şəkildə iştiraka cəlb edilməsi, təhsil alması və s. məsələlər mühüm vəzifə kimi qarşıya qoyulmuşdu.

İctimai-pedaqoji və təhsil mühitinin bütün ehtiyac və kəsirlərini həssas bir ideoloq duyumu ilə hiss edən M.Ə.Rəsulzadəni yaşlıların təhsili də maraqlandırmışdır. O, təkcə böyüməkdə olan nəslin deyil, yaşlıların da savadlanması qayğısına qalmışdır. Onun "Cümə məktəbi", "Müsəlmanlar üçün gecə kursları açıldı", "Ehtiyac nəyədir?", "Gecə dərslərindən təəssüratım", "Müəllimlər kursu" və s. məqalələri deyilən məsələ ilə bağlıdır.

M.Ə.Rəsulzadə 1908-ci ildə "Nicat" xeyriyyə cəmiyyətinin sədri olarkən Bakıda müsəlman fəhlələri üçün gecə kurslarının açılmasına da nail olur. "Ehtiyac nəyədir?" və "Müsəlmanlar üçün gecə kursları açıldı" məqalələrində müəllif həmin məsələdən danışır. "Nicat" cəmiyyətinin millətlərin mübarizə meydanında xalqımızın "hər bir qədəmdə silahsız olduğunu" görüb savadsız kütlənin maariflənməsi yolunda səy göstərdiyini nəzərə çatdırır və əlavə edir: "Böylə dirilik etmək olmaz!.. Bu qanılmış. İndi ehtiyac nəyədir?.. İştə müsəlman avamını təəmmülə salan məsələ.

İndi böyük ehtiyac, uşaqlıqda təlim vaxtı ötüb müxtəlif cəhətlərlə "əsləhəsiz" qalmış olanları elmi əvvəliyyə və ibtidaiyyə ilə müsəlləh etməyədir."[1]

"Nicat" sədri gecə kurslarının təşkili üçün rəsmi icazə alındığını, kursların 1908-ci il dekabr ayının 10-dan etibarən Şamaxı yolunda 6 sinifli şəhər məktəbinin binasında axşam saat 6-dan fəaliyyətə başlayacağını xəbər verir. Nəhayət, kurslar fəaliyyətə başlayir. Məmməd Əmin vaxtaşırı kurslara gəlir, burada tədrisin vəziyyəti ilə maraqlanırdı. O, buradan aldığı təəssürat və sevinc hisslərini 1909-cu ildə "Tərəqqi" qəzeti səhifələrində "Gecə dərslərindən təəssüratım" adlı yazısında əks etdirmişdir. Kursun hər üç sinfindəki dərslərdə iştirak edən "Nicat" sədri müdavimlərin oxu-yazısından, fəallığından razı qalır. Onların necə həvəs və şövq ilə dərs oxumaları Məmməd Əmin bəyi fərəhləndirir. Müəllimlərin də bu işə həvəslə yanaşmasını əsl millətpərvərlik

---

[1]Rəsulzadə M.Ə. Ehtiyac nəyədir? "Tərəqqi" qəzeti, Bakı, 1908, 5 dekabr

nümunəsi hesab edir. Kursda gözlənildiyindən az müdavimlərin iştirakı onu təəssüfləndirir. Lakin kursların gələcəyinə böyük ümidlə yanaşır. Beləliklə, deyilənləri yekunlaşdıraraq aşağıdakı nəticəyə gələ bilərik:

1. XIX əsrin sonu və XX yüzilliyin əvvəlləri Azərbaycan xalqının ictimai, siyasi, iqtisadi, ədəbi, mədəni və pedaqoji həyatının inkişafında son dərəcə məhsuldar və əlamətdar dövrdür. Azərbaycan intibahının "sübh çağı" (F.Köçərli) kimi xarakterizə olunan həmin dövrdə mühüm iqtisadi, ədəbi-mədəni, ictimai-siyasi, maarifçi-pedaqoji hadisələr və yeniliklər baş verir. Qısa bir zaman kəsimində xalqımız göstərilən istiqamətlərdə büyük yüksəlişə nail olur. Milli məfkurə, milli ideologiya, hürriyyət və milli istiqlaliyyət ideyaları formalaşır və nəticədə ADC (Azərbaycan Demokratik Cümhuriyyəti) kimi müstəqil dövlətin yaranmasına gətirib çıxarır.

2. Göstərilən böyük işlərin nəzəri bazasının hazırlanmasında və onların əməli surətdə həyata keçirilməsində bir sıra düşüncə sahibləri, milli ideoloqlar, maarifçilər, pedaqoqlar yaxından iştirak edirlər. Həmin ideoloqlardan, milli təfəkkür və qələm sahiblərindən biri də M.Ə.Rəsulzadə idi.

3. M.Ə.Rəsulzadə xalqımızın görkəmli maarifçisi, mühərriri, siyasətçisi, dövlət xadimi, milli ideoloqu və azadlıq mücahidlərindən biri və öndə gedəni olmuşdur. Azərbaycançılıq, turançılıq düşüncəsinin, xalqımızın müstəqillik, hürriyyət və istiqlaliyyət ideyasının, milli dövlətçilik məfkurəsinin yaranmasında və praktiki şəkildə reallaşdırılmasında onun müstəsna dərəcədə böyük rolu, əməyi olmuşdur.

4. XIX əsrin son rübü və XX əsrin I yarısında yaşamış M.Ə.Rəsulzadə ağır, keşməkeşli, qaynar, təlatümlü, bəzən də məşəqqətli, mücadilə ilə dolu, mübariz və fədakar bir ömür yaşamış, bütün şüurlu ömrünü xalqının istiqlaliyyətinə, müstəqilliyinə, tərəqqisinə və səadətinə həsr etmişdir.

5. Çoxşaxəli yaradıcılıq və mübarizə yoluna malik ziyalının mücadilə yolunun əsas bir istiqamətini də xalqınızın savadlanması, elm və maarif kəsb etməsi, təhsil və məktəb yolu ilə dünyanın mədəni, inkişaf etmiş xalqları səviyyəsinə qalxması tendensiyası təşkil edir. Onun zəngin, kəmiyyətcə əhatəli, keyfiyyətcə dolğun yaradıcılıq irsinin, çoxsaylı əsərlərinin mühüm bir qismini göstərilən bu məsələ ilə əlaqədar, ona

yardım edən əsərlər təşkil edir. Miqdarca heç də az olmayan həmin əsərləri M.Ə.Rəsulzadənin maarifçilik və pedaqoji irsinin dəyərli məhsulları hesab etmək olar. Azərbaycanda pedaqoji fikrin inkişafına, məktəb və maarif həyatının canlanmasına, təhsilimizin milliləşməsinə, demokratikləşməsinə və müasirləşməsinə xidmət edən həmin əsərlər həm də bütövlükdə Azərbaycan pedaqoji fikrinin dəyərli incilərindəndir. İndiyə qədər diqqətdən və tədqiqatdan kənarda qalmış həmin əsərləri bir bütöv halında araşdırmaq pedaqogika elmimizin qarşısında duran vacib problemlərdən biridir.

6. M.Ə.Rəsulzadə xalqı cəhalətdən qurtarıb tərəqqi yoluna salmağın ən vacib komponenti kimi ilk növbədə ona maarifi, onun səmərə və faydasının nə olduğunu başa salmağın zərurətini dərk edir. Ona görə də bu səpkidə çoxlu məqalələr yazıb mətbuatda nəşr etdirir.

7. Maarifçi ideoloqun pedaqoji məzmunlu məqalələrinin bir qismi çarizmin ucqarlardakı maarif və təhsil siyasətinin təhlilinə həsr edilmişdir. Onun siyasi məqalə və çıxışlarında da vaxtaşırı deyilən problemə toxunulur. O, çarizmin milli ucqarlardakı təhsil və maarif siyasətinin müstəmləkəçi mahiyyətini, "ruslaşdırma" meylini açıb göstərməklə xalqı ayıltmağa, əsl həqiqətləri ona başa salmağa çalışır və beləliklə, onu ideya-nəzəri cəhətdən öz hüquqları, təhsili və maarifi uğrunda mübarizəyə hazırlayır.

8. M.Ə.Rəsulzadə XX əsrin əvvəllərində milli məktəbin yaradılması uğrunda əzmlə mübarizə aparır, bunun xalqın gələcəyi üçün strateji əhəmiyyətli bir problem olduğunu yaxşı dərk edir. O, mütərəqqi ziyalıları, xeyriyyə cəmiyyətlərini, 1906-1907-ci illərdə keçirilən I və II Azərbaycan müsəlman müəllimlər qurultayının iştirakçılarını da bu yolda səfərbərliyə çağırır, milli mətbuatın və milli məfkurəli maarif xadimlərimizin bu istiqamətdəki fəaliyyətinə ciddi dəyər verir.

9. Görkəmli maarifçi məktəblərimiz üçün səviyyəli, peşəkar, savadlı kadrların hazırlanmasına xüsusi diqqət yetirir, bu cür kadrlar olmadan məktəblərin və milli təhsilin lazımi uğur qazana bilməyəcəyini bəyan edir. Keyfiyyətli kadrlar, pedaqoqlar hazırlamaqdan ötrü Azərbaycan şəhərlərində pedaqoji seminariyaların və ali təhsil müəssisələrinin yaradılmalı olduğunu dönə-dönə xatırladır, həmin ideyaların reallaşdırılması uğurunda canfəşanlıqla çalışır.

10. O, müəllim şəxsiyyətinə yüksək dəyər verir, xalqın cəhalətdən, nadanlıqdan qurtuluşunda onun əvəzsiz rolu olduğunu söyləyirdi. Müəllimi millətin "elm və maarif çıraqları", "ürfan nuru" adlandırırdı.

11. M.Ə.Rəsulzadənin pedaqoji irsində təlim-tərbiyə məsələlərinə münasibət, onun milli və bəşəri nöqteyi-nəzərdən şərhi geniş yer tutur. O, həssas bir pedaqoq fəhmi, həmçinin milli dəyərlərlə qlobal miqyaslı bəşəri dəyərləri müasir mənada uzlaşdırmağı bacaran bir mütəfəkkir düşüncəsi ilə təlim və tərbiyənin çağdaş kodlarını, meyarlarını, ruhunu böyüməkdə olan nəslə necə təlqin etməyin yolları, metodları barədə maraqlı, lazımlı mülahizələr irəli sürür, diqqətəlayiq fikirlər söyləyir, tövsiyələr verir.

12. Milli özünüdərk və milli əxlaq tərbiyəsi barədə son dərəcə aktual, yaşadığı milli-tarixi epoxanın ab-havasına müvafiq izahatlar verir, indiki və gələcək dövr üçün onun əhəmiyyətini milli bir pedaqoq düşüncəsi ilə geniş ictimaiyyətə aydınlaşdırır.

13. Ümumi təhsilə keçid barədə də Məmməd Əmin bəyin təklif və mülahizələri xüsusi maraq doğurur. O, xalqın gələcək taleyinin və xoşbəxtliyinin mütləq mənada ümumi təhsilə, xalqın kütləvişəkildə maarifləndirilməsinə bağlı olduğunu söyləyir. Bunun mahiyyət və pedaqoji səmərəsini əsərlərində əhatəli surətdə şərh edir.

14. Müəllim olmasa da, M.Ə.Rəsulzadə təhsilin məzmunu barədə də gərəkli fikirlər söyləyir. Onun o zamankı məktəbli uşaqlardan ötrü çap olunan dərsliklər, sinifdən xaric oxu kitabları, uşaq mətbuatı, həmçinin peşə təhsili və onun əhəmiyyəti ilə bağlı xeyli mətbu məqaləsi vardır.

15. Vətənpərvərziyalını maraqlandıran, məşğul edən pedaqoji məsələlərdən biri də rus imperiyası və müstəmləkəsi şəraitində milli ucqarlardakı təhsil ocaqlarında ana dili və onun tədrisinə münasibət məsələsi olmuşdur. Yerli dillərə, onun məktəblərdə tədrisinə monarxiya ideoloqları, çar məmurları tərəfindən ögey münasibət göstərildiyi bir cansıxıcı ictimai-siyasi və pedaqoji iqlimdə o, istər ictimai həyatda, istərsə də təhsil sferasında ana dilinin mövqeyinin gücləndirilməsi yolunda kifayət qədər əzmkarlıqla mübarizə aparmışdır.

16. M.Ə.Rəsulzadə mənəvi-əxlaqi cəhətdən kamil, ehtiyatlı, imanlı, ləyaqətli vətəndaş yetişdirməkdə dini faktora da ciddi önəm ve-

rir. Dini baxışlarda mühafizəkarlığın, mürtəce ruhanilərin əleyhinə çıxan millət xadimi sağlam, məntiqli, elmi əsaslara söykənən, müasirliklə uzlaşan dini tərbiyənin tərəfdarı kimi çıxış edir. Bu sahədə zəmanəsinin mütərəqqi baxışlı millət münəvvərlərinin, həmməsləklərinin fikirlərinə şərik çıxır.

17. Qadın tərbiyəsi ("tərbiyəti-nisvan") məsələsində də Məmməd Əmin bəy tərəqqipərvər mövqedə dayanır. Mütərəqqi baxışlı məsləkdaşlarının fikirlərinə şərik çıxır. Millətin gələcək taleyinin qadınların təlim və tərbiyəsindən asılı olduğunu iqrar edir. Qadınların da bərabərhüquqlu cəmiyyət üzvü kimi təhsilə cəlb edilməsini, maariflənməsini müasir ruhda tərbiyə olunmasını zəruri sayır.

18. O, yaşlıların təhsilinə də xüsusi diqqət yetirir. Bunun üçün cümə məktəblərinin, ayrı-ayrı kursların təşkilini məsləhət görür. İmkanlı adamları, xeyriyyə cəmiyyətlərini bir istiqamətdə lazımi işlər görməyə çağırır.

Məmməd Əmin Rəsulzadənin pedaqoji fikir və təhsil tariximizdə irəli sürdüyü dəyərli nəzəri mülahizələri, gördüyü işləri, oynadığı əvəzsiz rolu, maarifçilik fəaliyyətini, təlim və tərbiyə sistemimizin milli məcraya yönəlməsi sahəsindəki xidmətlərini, zəngin və əhatəli yaradıcılıq irsini, bu irsin mədəni, ictimai və pedaqoji həyatımızdakı dəyərini nəzərə alaraq onun pedaqoji mirasının öyrənilməsi, araşdırılması və təbliği ilə bağlı aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

1. M.Ə.Rəsulzadənin pedaqoji əsərləri toplanaraq ayrıca kitab halında nəşr edilsin.

2. M.Ə.Rəsulzadənin elmi-pedaqoji irsinin müxtəlif istiqamətlərdə tədqiqi və təbliği işi bundan sonra da davam etdirilsin. Bunun üçün fərdi qaydada elmi-tədqiqat işi aparmaqla yanaşı elmi-praktiki konfranslar, elmi sessiyalar keçirilsin.

3. Tələbələrə onun həyatına, fəaliyyətinə, pedaqoji irsinin və təlim-tərbiyə ilə bağlı fikirlərinin ayrı-ayrı problemlərinə aid buraxılış işləri, magistr dissertasiyası mövzuları, kurs işləri verilsin.

4.Məmməd Əmin Rəsulzadənin adına tələbə təqaüdü tərtib edilsin.

5. Məmməd Əmin Rəsulzadənin xatirəsinə həsr edilmiş elmi-pe-

daqoji mühazirə və seminarlar keçirilsin.

**Tədqiqatın əsas məzmunu müəllifinaşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Məmməd Əmin Rəsulzadə ibtidai təhsil haqqında//"Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" mövzusunda Beynəlxalq Elmi konfransın materialları. Naxçıvan Dövlət Universiteti, 2014, s. 212-213

2. Педагогические взгляды М.А.Расулзаде. //«Вектор науки» Тольяттинского Государственного Университета, 2014, № 2, s. 65-67

3. M.Ə.Rəsulzadənin çarizmin maarif siyasəti haqqında fikirləri. // Elm və təhsil. Filologiya məsələləri, AMEA, № 9, Bakı, 2015, s. 411-414

4. M.Ə.Rəsulzadə maarif və onun əhəmiyyəti haqqında // Elmi əsərlər № 2, Bakı Qızlar Universiteti, 2015, səh. 194-198

5. Görkəmli ictimai-siyasi xadim və maarifçi M.Ə.Rəsulzadənin həyatı və pedaqoji yaradıcılığının ilkin mərhələsi (1884-1920)// "Pedaqoji Universitet xəbərləri" № 1, Bakı, ADPU, 2015, s. 410-414

6. Məmməd Əmin Rəsulzadənin milli məktəb uğrunda mübarizəsi// Elmi əsərlər, № 3, Azərbaycan respublikasının Təhsil Problemləri İnstitutu, Bakı, 2015, s. 190

7. Məmməd Əmin Rəsulzadənin çarizm maarif siyasəti haqqında fikirləri // Elmi xəbərlər. Gəncə 2015

8. Məmməd Əmin Rəsulzadə milli özünüdərk və milli əxlaq tərbiyəsi // ARTPİ, Bakı, 2016, s.215-219.

9. Məmməd Əmin Rəsulzadənin qadın təhsili haqqında fikirləri / Qafqaz Universiteti, 29-30 aprel, Bakı, s. 135

10. Məmməd Əmin Rəsulzadə dini təlim və tərbiyə haqqında // Naxçıvan Müəllimlər İnstitutunun xəbərləri, səh. 41-46.

11. Məmməd Əmin Rəsulzadə müəllim və ona verilən tələblər haqqında / Müəllim tələbə münasibətləri: pedaqoji və psixoloji aspektler. Respublika elmi konfransınını materialları. 27-28 oktyabr, Sumqatit Dövlət Universiteti, s.198-200

12. Мамед Амин Расулзаде о женском образовании // «Мова и Культура» Киев, 2016.

Dissertasiyanın müdafiəsi 29 dekabr 2023-cü il tarixdə saat 14.00-da ADPU-nun nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü.Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları ADPU-nun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 noyabr 2023-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.11.2023
Kağızın formatı: $60\times84^{1/16}$
Həcm: 39081
Tiraj: 100